# Həzrəti Zəhra məscidi

**Məscidin təməlini 1992-ci ilin "Qurban bayramı" günündə, Sarbanlar məhəlləsindəki mərhum Miriş ağanın həyətində, İranın Urmiyəli inşaatçıları tərəfindən qoymuşlar. XVIII əsrin axırlarında müqəddəs Əshabi-Kəhf mağarasını ziyarətə gəlmiş İraqlı zəvvarlar arasında Miriş Ağa adlı mömin şəxs (onun ismi Əl Miriş İbn Əbdüllah olmuşdur) Naxçıvan şəhərində ailə qurub yaşamışdır. 1898-ci ilin tarixində Miriş Ağanın ailəsində Cəfər adlı bir uşaq anadan yetim doğulur.**

Körpənin qayğısı ilə əvvəl xalası, sonradan dayısı məşğul olaraq onu şəhərdəki ruhani mədrəsəsində tərbiyələndirmişlər. Cəfər 5 yaşına çatanda atası da dünyadan köçməklə valideynlərindən yetim qalmışdır.

Quranı avazla oxuyan Cəfəri, dayısı şəhərdəki rus-tatar məktəbinə qoymuş və burada ibtidai sinfi bitirdikdən sonra onu Təbrizdəki yeddisiniflik məktəbdə oxutmuşdur. Təbrizdəki məktəbi bitirən Cəfəri dayısı Naxçıvana gətirərək Mirişli soyadı ilə "Zikr" məktəbinə qəbul etdirmişdir. 1918-ci ildə şəhərdəki mədrəsədə müəllim işləyən Cəfəri 20 yaşında gənc ikən dövlət işinə gətirirlər. Həmin illərdə Naxçıvanda yaradılmış Araz (Türk) Respublikasının Dövlət Baş Nazirliyinin maarif və mənəviyyat şöbəsinin müvəkkili olmuşdur.

Cəfər ağa Mirişli pedaqoji və dövlət məmuru işləməklə cümə günlərində də məsciddə xütbə oxuyaraq oradakı tələbə yataqxanasında rayon və kəndlərdən gəlmiş tələbələrə tərbiyəçilik etmişdir.

Böyük insan, mömin pedaqoq, dövlət xadimi olmuş Mir Cəfər Mirişli 1979-cu ildə 81 yaşında dünyadan köçmüşdür. Hazırda onun ailəsindən oğlanları Akif atasının peşəsini davam etdirərək müəllim, Adil isə sağlamlığın keşiyində duraraq həkim işləyirlər. Altmışıncı illərdə Naxçıvan şəhərində köhnədən qalma yaraşıqsız evləri sökərək yerində ictimai binalar tikirdilər. 1962-ci ilin 29 noyabr tarixində Mir Cəfər müəllimin ata evinin sökülməsinə başlayırlar. Burada bir neçə möcüzəvi hallar baş vermişdir: Söküntü aparan buldozerin sürücüsü maşınında keçindiyindən işləri yarımçıq qoymuşlar.

1977-ci ilin əvvəllərində həmin yerdə yenidən tikinti işlərinə başlamışlar. Ekskavatorun çalovu böyük qaya parçasına ilişməklə polad məftilləri qırılmışdır. Hadisədən sonra işlər yenə də yarımçıq qalmış, on il keçəndən sonra burada "Səadət sarayı" binasını tikmək istəmişlər. İşin təməlini qoyarkən yeraltı təkan olmuş, qorxudan bir neçə fəhlə ruhi sarsıntı keçirməklə şikəst olmuşlar.

1992-ci ilin Qurban bayramı günündə yarımçıq qalmış tikinti meydançasında - mərhum Miriş ağanın ocağında Naxçıvan MR Ali Məclisinin sədri cənab H.Əliyevin iştirakı ilə məscid binasının özülü qoyulmuşdur.

Ümumi sahəsi 1400 kvadrat metr olan məscid binası ikimərtəbəli və qoşa minarəli tikilmişdir. Minarələrin hündürlüyü 31 metr bişmiş kərpiclə hörülərək üstü minalı kaşılarla üzlənmişdir.

Məscidin üzü şimal səmtinə olmaqla birinci mərtəbədə yardımçı otaqlar, ikinci mərtəbədə isə kişi və qadınların ibadət salonu tikilmişdir. Geniş salonun ortasından qara pərdə, günbəzin içərisindən isə böyük elektrik çılçırağı asılmışdır. Məscidin portal darvazasında yuxarıdan ərəb və azəricə "Həzrəti Zəhra məscidi" sözləri yazılmışdır. Binanın günbəzi ilə yan divarlarında Qurandan sözlər yazılaraq bəzədilmişdir. Günbəzdə ərəbcə "Allahu Əkbər" (Allah təkdir) sözləri yazılmış, həyətdəki hovuzlarda əlvan balıqlar saxlanılır, həyətyanı sahədə isə dekorativ bəzək kolları əkilib. Məscidin həyətində qaya parçası üzərində latın qrafikası ilə yazılı lövhə vardır. Qaya üzərindəki yazı belədir: "Heydər məscidi". Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən möhtərəm Heydər Əliyev və İran İslam Respublikasının Bonyade Mostezəfan və Cambazane Enqelabe Eslame fondunun prezidenti, ağaye Möhsen Rəfiqdust tərəfindən imzalanmış protokola əsasən Ayətulla Xamneyi Həzrətlərinin və zatialiləri Heydər Əliyevin himayəsi ilə tikilmişdir."

1999-cu ilin 10 noyabr tarixində məscid öz qapılarını naxçıvanlı möminlərin üzünə açmışdır. Mərasimdə Azərbaycan prezidenti H.Əliyev, İranın din işləri müvəkkilləri və Naxçıvandakı İran konsulu Turi cənabları da iştirak etmişlər. Məscidin açılışında adamlara Quran kitablarını hədiyyə vermişlər. Məscid binası müasir kommunikasiya və istilik sistemi ilə təmin olunmuşdur, eyni vaxtda burada 1000 nəfərdən artıq adam ibadət edə bilər.

2005-ci ildə məscidin günbəzində təmir işləri aparılaraq qurğuşun lövhələrlə örtülmüşdür.

"Allahın doğru yola saldığı kimsəni heç kəs yoldan çıxara bilməz. Məgər Allah yenilməz qüvvət sahibi, intiqam sahibi deyilmi?!" (Quran, "Zümər" (39) s.a.37.)

**F.BAĞIROV**